Funded by the European Union

EU4Environment
Green Economy in Eastern Partner Countries

## Milli Konfrans

# RESURS SƏMƏRƏLİLİYİ AZƏRBAYCANDA BİZNESİN UĞURUNUN ƏSAS ELEMENTLƏRİNDƏN BİRİ OLACAQMI?

### İLKİN GÜNDƏLİK

**Tarix: 23 Aprel 2024**
**Məkan: Park Inn Radisson Hotel – Dan Ulduzu Zalı**

**Başlama: 9:00 (AZT)**
**Bitmə: 18:00 (AZT)**

**Format:** hibrid (onlayn və əyani tədbir)
**Dil:** İngilis və Azərbaycan (sinxron tərcümə ilə)

Bu linkə kliklməklə tədbir üçün qeydiyyatdan keçməniz xahiş olunur

Bu konfrans bir neçə nümayiş təşəbbüslərində iştirak edən Azərbaycan müəssisələrinin resurs səmərəliliyi istiqamətində əldə etdiyi təcrübəni və ümumilikdə daha yaşıl inkişafın üstünlüklərini nümayiş etdirəcəkdir. Konfrans qabaqcıl şirkətlərin təcrübəsini vurğulamaqla yanaşı, resurs səmərəliliyinin Azərbaycanda istehsal müəssisələrinin uğurunda mühüm pay sahibi olmaq yollarını müzakirə etmək imkanı yaradacaqdır.

Tədbirdə iştirak üçün qeydiyyatdan keçmək məcburidir və qeydiyyat pəncərəsi 22 aprel 2024-cü il tarixdə bağlanacaq. Əlavə məlumat üçün aşağıda qeyd olunan elektron poçt vasitəsilə Tatyana Chernyavskaya ilə əlaqə saxlayın: t.chernyavskaya@unido.org

Action implemented by:

OECD BETTER POLICIES FOR BETTER LIVES | UNECE | UN environment programme | UNIDO | THE WORLD BANK IBRD • IDA | WORLD BANK GROUP

## GÜNDƏLİK
## RESURS SƏMƏRƏLİLİYİ AZƏRBAYCANDA BİZNESİN UĞURUNUN ƏSAS ELEMENTLƏRİNDƏN BİRİ OLACAQMI?

**Moderator: Ms. Tatyana Çernyavskaya, Layihə Meneceri, Birləşmiş Millətlərin Sənaye İnkişafı Təşkilatı (UNIDO)**

| VAXT | BƏND |
|---|---|
| 09:00 – 09:30 | **Qeydiyyat və salamlama qəhvəsi** |
| 09:30 – 10:00 | **MEDIA POST**<br>*Media nümayəndələri ilə birlikdə yüksək səviyyəli məruzəçilər və özəl sektor təmsilçiləri Azərbaycan biznes subyektlərinin enerji və maddi resurslardan daha səmərəli istifadə etməsi ilə bağlı fikirlərini və təcrübələrini bölüşməyə dəvət olunurlar.* |
| 10:00 – 10:30 | **Yüksək səviyyəli sessiya: DAİRƏVİ İQTİSADİYYATIN İNKİŞAF GÜNDƏLİYİNƏ SALINMASI**<br>*Moderator: xanım Tatyana Çernyavskaya, UNIDO*<br><br>Faiq Mütəllimov, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər nazirliyinin Ekoloji siyasət şöbəsinin müdiri **(təsdiqlənməli)**<br><br>Ümid Ağazadə, Azərbaycan Respublikasının İqtisadiyyat nazirliyinin Beynəlxalq Təşkilatlarla Əməkdaşlıq Şöbəsinin rəis müavini **(təsdiqlənməli)**<br><br>Elmar İsayev, Aparat rəhbəri **(təsdiqlənməli)**<br>Kiçik Orta Biznesin İnkişafı Agentliyi<br><br>Ramilə Aslanova, Proqram rəhbəri **(təsdiqlənməli)**<br>Avropa İttifaqının Azərbaycan Respublikasındakı Nümayəndəliyi |
| 10:30 – 11:10 | **Sessiya 1: DAİRƏVİ İQTİSADİYYAT AZƏRBAYCANDA REALLIĞA ÇEVRİLİRMİ?**<br><br>**Azərbaycanda daha yaşıl biznes: On ilik əməkdaşlıqdan sonra balans cədvəli**<br>Dr. Yohannes Fresner, UNIDO Baş texniki məsləhətçisi<br><br>**Azərbaycanda Strateji Yol Xəritələri və Dairəvi İqtisadiyyat**<br>Faiq Mütəllimov, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər nazirliyinin Ekoloji siyasət şöbəsinin müdiri **(təsdiqlənməli)** |
| 11:10 – 11:40 | **QƏHVƏ FASİLƏSİ** |
| 11:40 – 13:30 | **Sessiya 2: DÜZGÜN SİYASƏT VƏ TƏNZİMLƏYİCİ BAZANIN TƏMİN EDİLMƏSİ / COP29**<br>*Moderator: Asya Çələbova, UNIDO-nun RSDTİ üzrə Milli İcra Tərəfdaşı*<br><br>**2050-ci ilə qədər Azərbaycanın Milli Səviyyədə Müəyyənləşdirilmiş Töhfələri**<br>**___________________________(təsdiqlənməli)**<br>Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər nazirliyi<br><br>**Azərbaycanda dairəvi iqtisadiyyat – Dövlət Strategiyası və Tənzimləyici Çərçivə**<br>**___________________________(təsdiqlənməli)**<br>Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər nazirliyi |

| | |
|---|---|
| | **Azərbaycanda daha yaşıl gələcəyə doğru ən son hadisələr - bərpa olunan enerji**<br>Kamran Hüseynov, Direktor müavini **(təsdiqlənməli)**<br>Azərbaycan Bərpaolunan Enerji Agentliyi (AREA)<br><br>**İqlim dəyişikliyinin yaratdığı yeni siyasi kontekstdə özəl sektor üçün imkanlar – COP29**<br>**___________________________(təsdiqlənməli)** Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər nazirliyi **/ və ya ___________________________ (təsdiqlənməli)**<br>Azərbaycan Bərpaolunan Enerji Agentliyi<br><br>**Suallar və Cavablar** |
| **13:30 – 14:30** | **NAHAR** |
| **14:30 – 15:30** | **Sessiya 3: İSTEHSALAT PROSESİNDƏ SƏMƏRƏLİLİYİN TƏŞVİQİ**<br>*Moderator: Asya Çələbova, UNIDO-nun RSDTİ üzrə Milli Tərəfdaşı*<br><br>**Azərbaycanda Resurs Səmərəliliyi və Daha Təmiz İstehsal təşəbbüsünə qoşulmuş nümayiş şirkətlərindən və RSDTİ Klublarının üzvlərindən biznes keyslərin təqdimatı**<br>Valeh Nəsibov, Sənayedə enerji səmərəliliyi eksperti<br>Rəna Əlizadə, RSDTİ təlimçisi<br>Tofiq Həsənov, RSDTİ Eksperti<br>Ləman Həsənova, RSDTİ Klublarının Fasilitatoru<br><br>**Texniki imkanlar, sadə geri ödəmə müddəti, XCD hesablanması, potensial maliyyə təşkilatları ilə əlaqə, fəaliyyət planı**<br>Cavanşir Abdullayev, Biznes və Maliyyə inkişafı eksperti<br><br>**Suallar və cavablar** |
| **15:30 – 15:50** | **EU4Environment proqramına qoşulmuş partnyor KOM-lar üçün MÜKAFATLANDIRMA MƏRASİMİ**<br><br>Resurs Səmərəliliyi və Daha Təmiz İstehsal (RSDTİ) ekspertləri, nümayiş şirkətlərinin nümayəndələri və RSDTİ Klublarının üzvləri proqramda iştiraka dair sertifikatlar alacaqlar. |
| **15:50 – 16:10** | **QƏHVƏ FASİLƏSİ** |
| **16:10 – 16:50** | **Sessiya 4: DƏYƏR ZƏNCİRLƏRİ VƏ YENİ BİZNES MODELLƏRİ ÜÇÜN DAİRƏVİLİK**<br>*Moderator: Tatyana Çernyavskaya, UNIDO*<br><br>**Azərbaycanda tullantıların idarə edilməsinə və dairəvi iqtisadiyyatın inkişafına dəstək___________________________(təsdiqlənməli)**<br>Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər nazirliyi<br><br>**Sənaye Tullantılarının İdarə Edilməsi: təkrar istifadənin, emalın və təmizləmənin prioritetləşdirilməsi ___________________________(təsdiqlənməli)**<br>Təmiz Şəhər ASC<br><br>**Azərbaycanda KOM-lar üçün sənaye tullantılarının xəritəsindən istifadə: UNIDO-nun pilot layihələrinin nəticələri**<br>Tofiq Həsənov, RSDTİ Eksperti |

| | |
|---|---|
| | **Dairəvi iqtisadiyyata investisiya axınlarının təşkili ___________________________(təsdiqlənməli)**<br>Avropa Yenidənqurma və İnkişaf Bankı<br><br>**Suallar və cavablar** |
| **16:50 – 17:20** | **Sessiya 5: MƏHSULLARIN YENİDƏN ŞƏKİLLƏNDİRİLMƏSİ VƏ RƏQƏMLƏŞMƏNİN SÜRƏTLƏNDİRİLMƏSİ**<br>*Moderator: Tatyana Çernyavskaya, UNIDO*<br><br>**Aİ-nin Yaşıl Məhsullar üzrə Vahid Bazarına (SMGP) çıxışın təşviqi: Azərbaycanda Məhsulun Ekoloji İzinin tətbiqi perspektivləri**<br>Yaşar Kərimov, UNIDO-nun SMGP təşviqi üzrə milli tərəfdaşı, REC Qafqaz Bakı Ofisinin direktoru (**təsdiqlənməli**)<br><br>**Dayanıqlı Dövlət Satınalmaları (SPP) və onu tamamlayan alətlər vasitəsilə biznesin yaşıllaşdırılmasının stimullaşdırılması ___________________________(təsdiqlənməli)**<br><br>**Suallar və cavablar** |
| **17:20 – 17:50** | **Sessiya 6: AZƏRBAYCANDA RSDTİ-NİN İNSTİTUSİONALLAŞDIRILMASI**<br>*Moderator: Asya Çələbova, UNIDO-nun RSDTİ üzrə Milli Tərəfdaşı*<br><br>**UNEC ilə Əməkdaşlıq Memorandumu – RSDTİ bələdçisinin 2024-2025-ci tədris ili proqramına salınması**<br>Mirlazım Dadaşov **(təsdiqlənməli),** Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi, UNEC<br><br>**RSDTİ klublarının gələcək perspektivləri**<br>Gülnar Məhərrəmova, Dayanıqlı İnkişaf və Yaşıl İqtisadiyyat Mərkəzi, UNEC<br><br>**Suallar və cavablar** |
| **17:50 – 18:00** | **Bağlanış nitqləri**<br><br>**Asya Çələbova** (ACE Group) və **Tatyana Çernyavskaya** (UNIDO) |
| **18:00 – 19:30** | **Şəbəkələşmə üçün şam yeməyi/kokteyl** |

## Milli Konfrans “Resurs səmərəliliyi Azərbaycanda biznesin uğurunun əsas elementlərindən biri olacaqmı?”

**Tədbirin məqsədləri, gözlənilən aralıq və yekun nəticələr**

Konfransın məqsədi dairəvi iqtisadiyyata keçid zamanı Resurs Səmərəliliyi və Daha Təmiz İstehsalın (RSDTİ) üstünlüklərini göstərməklə Azərbaycanda istehsalat müəssisələrində dayanıqlılığı və yaşıl inkişafı vurğulamaq və təşviq etməkdir. Bundan əlavə, tədbir altı sessiya vasitəsilə Azərbaycanın Kiçik və Orta Müəssisələrinin (KOM-lar) yaşıllaşdırılması istiqamətində təcrübə, alətlər və proqramları müzakirə etmək və bölüşmək imkanı verəcək.

**Birinci sessiya** dairəvi iqtisadiyyatın konturlarına, Azərbaycanda müvafiq təcrübəyə, o cümlədən bu sahədə ölkənin strateji hədəflərinə həsr olunub.

Milli siyasətlərə həsr olunmuş **ikinci sessiyada** yaşıl inkişaf strategiyaları müzakirə olunacaq, əsas diqqət Azərbaycanda müvafiq siyasətləri və əlaqəli inkişafı öz fəaliyyətlərində əks etdirən istehsal müəssisələrinə yönəldiləcək. Digər məsələlərlə yanaşı, sənayenin atmosferi çirkləndirməsi və emissiyalar, tullantıların və suyun idarə edilməsi məsələləri, Aİ-nin Yaşıl Saziş məsələləri və Azərbaycanın 2030-cu il: Sosial-İqtisadi İnkişaf üzrə Milli Prioritetlər” proqramı, Strateji Yol Xəritələri, 2022-2026-cı illər üçün Sosial-iqtisadi İnkişaf Strategiyası, Azərbaycanın BMTİDÇM üzrə 2050-ci ilə qədər Milli Səviyyədə Müəyyən edilmiş Töhfələri və iqlim dəyişikliyinin yaratdığı yeni siyasi kontekstdə özəl sektor üçün imkanlar və bu il **noyabrın 11-24-də Bakıda keçiriləcək COP29** kimi aktual mövzular müzakirə olunacaqdır.

Sənayedə və istehsalat müəssisələrində ekoloji fəaliyyəti yaxşılaşdırmaq üçün birbaşa əlaqəli yanaşmalardan biri RSDTİ-nin tətbiqidir. **Üçüncü sessiyanın diqqəti resurs səmərəliliyinin praktikada tətbiqinə yönəldiləcək**, çünki bu metodologiyanın tətbiqi rəqabət qabiliyyətini artırır və KOM-ların fəaliyyətini yaxşılaşdırır. Bu yanaşma ifrat xərcləmələrin qarşısını almaq, ətraf mühitə çirkləndiricilərin emissiyasını və atqıları azaltmaq və tullantıların yaranmasını azaltmaq üçün resurslara, enerjiyə və materiallara qənaət potensialının davamlı qiymətləndirilməsinə əsaslanır ki, bu da hər şeydən əvvəl müəssisədə iqtisadi xərclərin azalmasına töhfə verir. RSDTİ metodologiyası müəssisənin mütəxəssisləri, istehsal müəssisələri və ekspertlər tərəfindən bütün növ resurslar üzrə itki mənbələrini müəyyən etmək, bu cür itkilərin əsas səbəblərini müəyyənləşdirmək və itkiləri azalda və ya tamamilə aradan qaldıra biləcək fəaliyyətləri hazırlamaq üçün istifadə olunur.

**Dördüncü sessiyada** diqqət Azərbaycanda artıq bir sıra regional və milli təşəbbüslər vasitəsilə dəstəklənən dairəvi iqtisadiyyata (Dİ) keçidə yönəldiləcək. Burada iştirakçılar Azərbaycanda Dairəvi İqtisadiyyatın xəritələşdirilməsinə dair ümumi məlumat alacaq və tullantıların idarə olunması üzrə prioritet təcrübələrlə tanış olacaqlar. Sessiya çərçivəsində, həmçinin iki pilot rayonun (Bakı və Abşeron-Xızı) uğurlu təcrübəsinin nümayişini əks etdirən Sənaye Tullantılarının Xəritələşdirilməsi (IWM) konsepsiyası da müzakirə olunacaqdır.

**Beşinci sessiyaya Azərbaycan KOM-larının yaşıllaşdırılmasını dəstəkləyən məhsul yönümlü təşəbbüslərin icmalı daxildir** – bunlara misal olaraq, Məhsulun Ekoloji İzi (PEF) və Yaşıl Məhsullar üçün Vahid Bazar (SMGP) təşəbbüsünün bir hissəsi kimi eko-etiketləmə, eko-innovasiyaların təşviqi və Dayanıqlı Dövlət Satınalmaları (SPP) və onun tamamlayıcı alətləri vasitəsilə istehsalın yaşıllaşdırılmasının stimullaşdırılmasını göstərmək olar. EU4Environment təşəbbüslərindən

başqa, KOM-ların yaşıllaşdırılmasını dəstəkləyən digər EU4 və ikitərəfli proqramlar öz nəticələrini və planlarını nümayiş etdirəcəklər. Bundan əlavə, sessiyada KOM-lara rəqəmsal dəstək vasitələrindən (I-GO təşəbbüsü və onun köməkçi aləti), o cümlədən ən uyğun RSDTİ bilik və dəstək xidmətlərinə uyğun olan KOM-ların sürətli onlayn özünüqiymətləndirməsi və naviqasiya alətindən istifadə etməklə Azərbaycanda RSDTİ-nin institusionallaşdırılmasına dair təqdimat daxildir.

**Altıncı sessiyada Azərbaycanda RSDTİ-nin institusionallaşdırılması məsələləri**, UNIDO-nun RSDTİ üzrə İcraçı Tərəfdaşı ilə UNEC arasında imzalanmış Əməkdaşlıq Memorandumunun konturları, eləcə də EU4Environment RSDTİ layihəsində iştirak edən RSDTİ Klubları və nümayiş şirkətlərinin gələcək perspektivləri diqqət mərkəzində olacaq.

**İştirakçılar**

Hədəf auditoriya Azərbaycanda yaşıl iqtisadi inkişafa töhfə verən maraqlı tərəflərdən, o cümlədən hökumət, beynəlxalq və vətəndaş cəmiyyəti təşkilatlarından ibarətdir. Tədbir, həmçinin istehsalat müəssisələri də daxil olmaqla, kiçik və orta sahibkarlıq subyektlərinin nümayəndələrini cəlb etmək məqsədilə təşkil edilir; bura müəssisələr, mühəndislik (kimya, sənaye, ətraf mühit) və energetika sahələrində ekspertlər; akademik dairələrin üzvləri, eləcə də EU4Environment (2021-2024) və EaP GREEN (2013-2017) Fəaliyyətlərində iştirak etmiş praktiklər (RSDTİ Klublarının üzvləri və RSDTİ Nümayiş Şirkətləri, RSDTİ ekspertləri) daxildir. Şəxsən iştirak edəcək qonaqların ilkin sayı təxminən 80 nəfərdir. Onlayn qoşulacaq iştirakçı sayına məhdudiyyət yoxdur.

**Praktiki məlumat**

Tədbir Avropa İttifaqı tərəfindən dəstəklənir və Aİ tərəfindən maliyyələşdirilən EU4Environment Yaşıl İqtisadiyyat Təşəbbüsünün icraçı tərəfdaşı kimi Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişafı Təşkilatı (UNIDO) tərəfindən təşkil edilir və Azərbaycanda onun Milli İcraçı Tərəfdaşı olan ACE Qrupu Consultants tərəfindən dəstəklənir. Tədbir hibrid formatda (əyani və onlayn) həm ingilis, həm də azərbaycan dillərində (sinxron tərcümə ilə) keçirilir. Onlayn iştirakçılardan bu link vasitəsilə öncədən qeydiyyatdan keçmələri xahiş olunur.

**Ümumi məlumat**

Resurs Səmərəliliyi və Daha Təmiz İstehsal (RSDTİ) təşəbbüsü ətraf mühitin mühafizəsinə yönəlmiş qabaqlayıcı strategiyaların tətbiqi üçün ümumi termin kimi istifadə olunur. Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişafı Təşkilatı (UNIDO) müəssisədə istifadə olunan bütün növ resursların itki mənbələrini müəyyən etməyə, belə itkilərin əsas səbəblərini təsbit etməyə, müəyyən edilmiş resurs itkilərini azaltmağa və ya tamamilə aradan qaldırmağa yönəlmiş tədbirlər hazırlamağa və belə tədbirlərin rentabelliyini qiymətləndirməyə kömək edən RSDTİ metodologiyasını işləyib hazırlamışdır. Gürcüstanda və digər Şərq Tərəfdaşlığı (ŞT) ölkələrində UNIDO RSDTİ metodologiyası Avropa İttifaqının maliyyələşdirdiyi regional proqram olan "EU4Environment" Fəaliyyəti çərçivəsində tətbiq edilir.

**EU4Environment haqqında**

"Avropa İttifaqı Ətraf Mühit naminə" (EU4Environment) layihəsi altı tərəfdaş ölkəyə (Ermənistan, Azərbaycan, Belarus, Gürcüstan, Moldova və Ukrayna) ekoloji fəaliyyətləri dəstəkləməklə, yaşıl

inkişaf imkanlarını nümayiş etdirməklə və rəvac verməklə, ekoloji risk və təsirlərin daha yaxşı idarə olunması üçün mexanizmləri müəyyənləşdirməklə altı tərəfdaş ölkənin təbii sərvətlərini qorumağa və əhalinin rifahını yaxşılaşdırmağa kömək etmək məqsədilə həyata keçirilir. Layihə, təqribən 20 milyon AVRO büdcə ilə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir və beş tərəfdaş təşkilatla birgə icra olunur: İƏİT, UNECE, UNEP, UNIDO və Dünya Bankı. Təşəbbüsün icra dövrü 2019-2024-cü illəri əhatə edir. Təşəbbüs haqqında daha ətraflı məlumat üçün bu səhifəyə daxil olun: www.eu4environment.org Azərbaycanda RSDTİ fəaliyyətləri haqqında daha ətraflı məlumat üçün bu səhifəyə daxil olun: https://recp.aceconsultants.az/en